UOT: 94(479.24)
Aida TEYMUROVA
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, doktorant
aida.teymurova99@mail.ru
https://orcid.org/0009-0002-0075-6871

QAFQAZ ALBANİYASINDA MADDİ MƏDƏNİYYƏT

Xülasə: Məqalədə Qafqaz Albaniyasının zəngin maddi mədəni irsi üzərində sistemli və kompleks elmi təhlil aparılır. Tədqiqatda xristian dini abidələri, qədim qəbir kompleksləri, yerli zərbxanaların istehsalı olan sikkələr, dövrün pul münasibətləri, monumental heykəltəraşlıq nümunələri və estetik cəhətdən yüksək səviyyədə hazırlanmış bədii keramika məmulatları bu qədim sivilizasiyanın aparıcı maddi mədəniyyət göstəriciləri kimi geniş şəkildə qiymətləndirilir. Müəllif arxeoloji qazıntılar, müxtəlif maddi tapıntılar və elmi mənbələr əsasında həmin dövrün sosial-iqtisadi quruluşunu, dini dünyagörüşünü və əhalinin gündəlik həyat tərzini ətraflı şəkildə təhlil edir. Məqalədə, eyni zamanda, Qafqaz Albaniyasının yalnız Azərbaycan üçün deyil, bütövlükdə Cənubi Qafqaz regionunun ümumi mədəni inkişafı baxımından oynadığı mühüm tarixi rol xüsusi olaraq vurğulanır. Müəllif maddi irsin qorunmasının və elmi dövriyyəyə daxil edilməsinin əhəmiyyətinə də diqqət çəkir.

Açar sözlər: Qafqaz Albaniyası, memarlıq, daşişləmə, kilsə, abidə, türk etnomədəniyyəti.

Aida TEYMUROVA

MATERIAL CULTURE IN CAUCASIAN ALBANIA

Abstract: The article presents a systematic and comprehensive scholarly analysis of the rich material cultural heritage of Caucasian Albania. The study evaluates Christian religious monuments, ancient burial complexes, coins minted by local mints, monetary relations of the period, examples of monumental sculpture, and highly artistic ceramics as key indicators of the material culture of this ancient civilization. The author thoroughly analyzes the socio-economic structure, religious worldview, and daily life of the population of that time based on archaeological excavations, various material findings, and academic sources. The article especially highlights the significant historical role of Caucasian Albania not only for Azerbaijan but also for the overall cultural development of the entire South Caucasus region. The author also draws attention to the importance of preserving this material heritage and integrating it into academic circulation.

Keywords: Caucasian Albania, architecture, transportation, church, monument, Turkish ethnoculture.

Аида ТЕЙМУРОВА

МАТЕРИАЛЬНАЯ КУЛЬТУРА В КАВКАЗСКОЙ АЛБАНИИ

Абстракт: В статье проводится системный и комплексный научный анализ богатого материального культурного наследия Кавказской Албании. В исследовании христианские религиозные памятники, древние погребальные комплексы, монеты, выпущенные местными монетными дворами, денежные отношения эпохи, образцы монументальной скульптуры и высокохудожественная керамика оцениваются как ведущие показатели материальной

культуры этой древней цивилизации. Автор подробно анализирует социально-экономическую структуру, религиозное мировоззрение и повседневную жизнь населения того времени на основе археологических раскопок, различных материальных находок и научных источников. В статье особо подчёркивается важная историческая роль Кавказской Албании не только для Азербайджана, но и для общего культурного развития всего региона Южного Кавказа. Автор также акцентирует внимание на значимости сохранения материального наследия и его интеграции в научный оборот.

Ключевые слова: Кавказская Албания, архитектура, транспорт, церковь, памятник, турецкая этнокультура.

Giriş

Hazırkı dövrədək gəlib çatan Qafqaz Albaniyası dövrünün memarlıq abidələri daha çox müdafiə və dini xarakterli abidələrdir. Qafqaz Albaniyasında memarlıq sahəsinin və mədəniyyətin inkişaf etməsində türk tayfaları mühüm yer tutmuşdur. Məhz buna görə də tarixçilərin bir çoxu Qafqaz Albaniyasında memarlıqdan söhbət getdikdə bu sahəni Alban-türk memarlığı deyə adlandırırlar. Qafqaz Albaniyasının abidələrində türklərin mədəniyyətinə, dünyagörünüşünə, etiqadlarına, sənət ənənələrinə dair çoxsaylı elementlər mövcuddur. Lakin Qafqaz Albaniyası dövrü abidələrində, həmçinin xristianlığı ifadə edən xaç təsvirləri də mövcud olmuşdur. Qafqaz Albaniyası abidələrindəki türk dünyagörüşü, türk mədəniyyəti, türk etiqadı, türk sənət ənənələrinə aid olan elementlər təsdiq edir ki, Qafqaz Albaniyası dövrü abidələri türk etnomədəniyyətinə məxsus olmuşdur [8, s.82]. Qafqaz Albaniyasında bütpərəstlik tikililəri də mövcud olmuşdur. Görkəmli tədqiqatçı Gülçöhrə Məmmədova qeyd etmişdir ki, arxeoloji tədqiqatlar nəticəsində Qəbələ rayonu Böyük Əmilidə bütpərəstlik tikililərinin qalıqları aşkar edilmişdir. Qafqaz Albaniyası ərazisində xristian dini yayılmağa başlayanda isə artıq bütpərəstliyə məxsus məbədlər kilsə üçün uyğunlaşdırılmağa başlanılmışdı. Bu cür kilsələrin ən qədimi Şəki ərazisindəki Kiş kilsəsi hesab edilir. Qafqaz Albaniyasında memarlıqla birgə digər sahələr, o cümlədən daşişləmə, qəbirüstü abidələrin inşa edilməsi kimi sahələr də inkişaf etmişdir. Yüksək nüfuzlu şəxslərin əsasən də din xadimlərinin qəbirlərinin üstündə xatirə abidələri düzəldilirdi. Bu xatirə abidələri bədii-dekorativ kompozisiyalarla tərtib edilirdi. Hazırkı dövrədək gəlib çıxan abidələrdə xristianlıqdan öncə mövcud olmuş təsəvvür və etiqadla əlaqəli çoxsaylı elementlər də vardır. Bu barədə faktlara əsaslanan elmi fikirlər mövcuddur. Qafqaz Albaniyası dövrünə dair arxeoloji tədqiqatlar nəticəsində bir çox daşişləmə sənətinə dair nümunələr də aşkar edilmişdir. Bu nümunələrdən biri də Mingəçevir ərazisində arxeoloji tədqiqatlar aparılarkən kilsə kompleksində tapılmışdır. Həmin daş üzərində alban yazısı, xaç təsviri və tovuz quşu təsviri mövcuddur. Bir sıra tədqiqatçılar belə hesab edirlər ki, həmin daş qurbangah olmuşdur, digər tədqiqatçıların fikrincə isə bu daş xaç altlığı olmuşdur. Həmin daş üzərindəki mətni oxuyan isə Jost Gippert olmuşdur [8, s.85].

Qafqaz Albaniyası maddi mədəniyyət abidələri özündə türk etnomədəniyyətini əyani olaraq ehtiva edir. Baxmayaraq ki, ayrı-ayrı dövrlərdə bu mədəniyyət müxtəlif ideoloji təsirlərə uğramışdır, bununla belə etnomədəni mənsubluq qorunub saxlanılmışdır.

Qafqaz Albaniyasının xristian abidələri. Qafqaz Albaniyasında xristianlıq I yüzillikdən etibarən yayılmağa başlamışdır. IV yüzilliyin əvvəlində isə artıq Qafqaz Abaniyasında xristian dini dövlət dini statusu almışdır. Amma VII əsrdə ərəb istilasının nəticəsi olaraq bu ərazidə dövlətçilik çox güclü olmamışdır. Artıq VIII əsrdən başlayaraq erməni monofizit kilsəsi tərəfindən alban

katalikosu seçilmiş şəxslər təsdiq edilməyə başlanmışdır [2, s.3]. Hazırkı dövrdə Azərbaycan ərazisində Qafqaz Albaniyası memarlığına dair çoxsaylı kilsə, məbəd mövcuddur. Son dövrlərdə görkəmli azərbaycanlı tədqiqatçılar tərəfindən Qafqaz Albaniyası abidələrinin tədqiq edilməsi sahəsində xeyli iş görülmüşdür. Kiş kilsəsi təkcə Qafqaz Albaniaysında yox, bütünlüklə Qafqaz ərazisində ilk xristian kilsəsi hesab edilir. Bu kilsə Şəki ərazisində Kiş kəndindədir. Doğrudur, Kiş kilsəinin üzərində hazırkı dövrdə hər hansı bir epiqrafik yazı mövcud deyil, lakin buna baxmayaraq inşaat trexnologiyası və üslubu, o cümlədən memarlıq xüsusiyyətləri sübut edir ki, Kiş kilsəsi Qafqaz Albaniyasına məxsus memarlıq abidələrindəndir. Bu kilsə bir neçə dəfə təmir edilmişdir və günümüzə qədər çox dağıntılara məruz qalmadan normal şəkildə gəlib çata bilmişdir. Kilsənin üzərində əvvəllər kitabə olmuşdur. Bu kitabə Kiş kilsəsinin müqəddəs Yelisey kilsəsi olmasını, o cümlədən kilsənin arxidiakonu Serafimin 1244-cü ildə kilsəni yenidən tikdiyini göstərirdi. Kiş kilsəsinin kitabəsi XIX yüzilliyin 30-cu illərində Kiş kilsəsi rəsmi şəkildə ləğv ediləndən sonra pozulmuşdur. Bu zaman bir sıra başqa alban məbədlərinin də taleyi bu cür olmuşdur.

Qafqaz Albaniyası dövrünə dair digər bir xristianlıq abidəsi də Qax ərazisindəki Qum kəndində yerləşən xristan məbədidir. Bu məbəd V-VI yüzilliklərdə inşa edilmişdir. Bu dövrə aid digər bir məbəd də Qum kəndindəki məbədlə eyni vaxtda inşa edilən Ləkit kəndindəki məbəddir [7]. Qafqaz Albaniyası ərazisində yeni xristian kilsələrinin tikilməyə başlanması Alban çarı Urnayr tərəfindən xristian dini dövlət dini elan ediləndən sonrakı dövrdə genişlənmişdir. Qafqaz Albaniyası dövrünə aid başqa bir xristianlıq məbədi də Avey məbədi hesab edilir. Bu məbəd Qazax rayonundadır. Buradakı Avey dağ zirvəsində inşa edilib. Avey məbədindən bir az aşağıda isə Şişqaya məbədi mövcuddur. Şişqaya məbədi ilə yanaşı bu əraizdə başqa süni mağara məbədlər də mövcuddur. Bu abidələr tədqiqatçı F.Muradova və C.Rüstəmovun tədqiqatlarına əsasən xristianlıq Qafqaz Albaniyası ərazisində ilk dəfə yayıldığı dövrdə inşa edilmişdir. Qafqaz Albaniyasında III Vaçaqan hakimiyyətdə olduğu zaman üç yüzdən artıq kilsə inşa edilmişdir. VII yüzilliyin ortalarına az qalmış artıq Qafqaz Albaniyası ərazisində 30-dan çox monastr mövcud idi [11, s.57]. Dərbənddəki Çola monastrında IV-V yüzilliklərdə, Bərdədəki monastrda VI-VII yüzilliklərdə, Ağdərə ərazisindəki Yelisey monastrında VIII-IX yüzilliklərdə, Kəlbəcərdəki Xudavəng monastrında X-XV yüzilliklərdə, Gəncəsər monastrında XV-XIX yüzilliklərdə Albaniya karalikosluğunun taxtı mövcud olmuşdur. Bərdə kilsəsinin böyük monastra çevrilməsi Alban kilsəsi rəhbəri müqəddəs ata Abbas tərəfindən 552-ci ildə Bərdəyə Çola ərazisindən iqamətgah köçürüləndən sonrakı dövrə təsadüf edir [7].

Şəki rayonu Kiş kəndində yerləşən Kiş kilsəsi və ya müqəddəs Yelisey məbədi, Oğuz rayonunda yerləşən müqəddəs Yelisey məbədi və Şəkidəki Orta Zəyzid kəndi ərazisində yerləşən alban məbədinin planı təxminən eyni olmuşdur. Apostol Yelisey Qafqaz Albaniyasında xristian dininin yayılmasında mühüm rol oynamışdır. Buna görə də onun adına bir neçə məbəd inşa edilmişdir. Bu məbədlərdən biri də hazırkı dövrədək gəlib çatan Ağdərə rayonu ərazisindəki müqəddəs Yelisey adına monastrdır. Qafqaz Albaniyası dövrünün memarlıq abidələrini araşdıran görkəmli tədqiqatçılar belə hesab edirlər ki, Qafqaz Albaniyasının memarlıq abidələri planlaşdırılma üslubu, xüsusiyyətlər və xarakterik elementlər baxımından ermənilərə məxsus olan memarlıq abidələrindən fərqlənirlər. Təcavüzkar ermənilər öz hiyləgər hərəkətlərinə haqq qazandırmaq üçün memarlıq abidələrimizin çoxunu ermənilərə məxsus memarlıq abidələri kimi qələmə vermişdir. Erməni şovinistləri tərəfindən bu cür əməllər hər zaman, o cümlədən 1990-ci illərin əvvəlində Azərbaycana məxsus torpaqların iyirmi faizindən çoxunu işğal etdikdə və bundan sonrakı dövrlərdə də davam etdirilmişdir. Memarlıq abidələrimiz amasızcasına dağıdılmışdır. İşğalçı ermənilər bu

ərazilərdə arxeoloji tədqiqatları qeyri-peşəkarlıqla aparmış, tapıntılar Ermənistana aparılmış və kurqanlar dağıdılmışdır [15, s.22].

Xalqımızın mədəni irsinin qorunması mühüm əhəmiyyət kəsb edir çünki mədəni irsimiz bəşər mədəniyyətinin mühüm hissəsidir.

Qafqaz Albaniyasının qəbir abidələri. Qafqaz Albaniyasında müxtəlif qəbir növləri mövcud olmuşdur. Arxeoloji tədqiqatların nəticəsi olaraq 8 növdə qəbir abidələri aşkar edilmişdir. Bunlar küp, təknə, quyu, torpaq, çiy kərpic, ağac,daş qutularda, katakomba qəbirlərdir. Eyni zamanda bu qəbir abidələrinin ayrı-ayrı lokal tipləri mövcud olmuşdur. Bu abidələrin fərqli olması Qafqaz Albaniyasının əhalisinin etnik cəhətdən tərkibi ilə əlaqədardır. Buna baxmayaraq Qafqaz Albaniyasının qəbir abidələri bir-biri ilə forma cəhətdən fərqli olsa da, onların ortaq cəhətləri də mövcuddur. Dəfn əşyalarını buna misal göstərə bilərik. Qafqaz Albaniyasında təxminən qəbirlərin hamısında ölülər sol və ya sağ böyü üstə bükülərək dəfn edilmişdir. Qafqaz Albanoyasında qəbir növlərindən ən geniş yayılanı torpaq qəbirlər olmuşdur. Torpaq qəbirlər Qəbələ, Yaloylutəpə, Mingəçevir, Qax, Xınıslı, Qarabulaqkənd və digər ərazilərdə tədqiqatlar nəticəsində aşkar edilmişdir. Bu tip qəbirlərin yan divarları və döşəmələri gillə örtülmüşdür və bu cür qəbirlər dördbucaq şəkildə qazılırdı. Onların dərinliyi 3,1 metrə yaxın olmuşdur [14, s.56]. Dəfn prosesi zamanı qəbirlərə ayrı-ayrı gil qablar yerləşdirilirdi. Bu qablar boz və qara rəngli olmuş və onların üzərində qırmızı zolaqlar çəkilmişdir. Qafqaz Albaniyasının qəbir abidələrinin hansı dövrə aid olmasını bu qəbirlərdə aşkar edilmiş numizmatik nümunələrə əsasən bilmək mümkündür. Həmin materiallara əsaəsn bu qəbir abidələri e.ə. IV-I yüzilliklərə aid qəbir abidələridir. Qafqaz Albaniyasında digər növ qəbirlər quyu qəbirlər olmuşdur. Quyu qəbirlər Şamaxı ərazisində aşkar edilmişdir. Bu tip qəbirlərin dərinliyi 5 metrə qədər olmuşdur. Quyu qəbirlərin əsas xüsusiyyəti o idi ki, burada böyük gil qablar ölünün baş hissəsi tərəfdə yerləşdirilirdi. Bu növ qəbirlərdən şüşə materialları, silah, gil qablar, bəzək məmulatları aşkar edilmişdir. Bu tip qəbirlər e.ə. I minilliyə aiddir. Qafqaz Albaniyasında həmçinin gil-təknə qəbirlər də mövcud olmuşdur. Bu tip qəbirlər Qəbələ, Mmingəçevir və İsmayıllıda tədqiq edilmişdir. Tədqiqatların nəticələrinə əsasən gil-təknə qəbirlər Tüğyançay, Göyçay və Girdimançay əraziləri üçün daha xarakterikdir [11, s.24]. Təknələr oval və dördkünc formada olmuşdur və gildən düzəldilmişdir. Ölülər bu tip qəbirlərdə bükülərək böyrü üstə və fərqli istiqamətlərdə dəfn edilirdi. Qafqaz Albaniyasında mövcud olmuş qəbir növlərindən biri də taxta qutular hesab edilir. Taxta qutu qəbirlər Kürün sol sahilində və Mingəçevir əraziisndə tədqiq edilmişdir. Taxta qutu qəbirlər az tədqiq edilmişdir. Taxta qutu qəbirlər arçan ağacından hazırlanırdı. Bu tip qəbirlərdə üzbəüz yerləşdirilmiş skeletlər aşkar edilmişdir. Təkskeletli qəbirlərdəki ölülər bükülərək baş hissəsi cənub-şərq istiqamətində dəfn edilmişdir. Taxta qutu qəbirlərdən dəmir xəncərlər, mis camlar, gil qablar, bıçaqlar, qılınclar, möhür, üzüklər, şüşə, gümüş, qızıl və tuncdan düzəldilən bəzək əşyaları, ox ucluqları aşkar edilmişdir. Bu tip qəbirlər e.ə. IV-I yüzilliklərə aid qəbirlər hesab edilirlər. Qafqaz Albaniyasında torpaq qəbirlərin bir çoxu çiy kərpic ilə əhatələnmişdir. Bu cür qəbirlər Xanlar rayonu Muğan düzündəki Cəfərxan qəbiristanlığı və Mingəçevir rayonu ərazisində tədqiq edilmişdir. Bu növ qəbirlərdə ölülər fərqli istiqamətlərdə dəfn edilmişdir. Bu tip qəbirlərdən birində həmçinin cüt skelet tapılmışdır [16, s.47]. Eyni zamanda bəzək əşyaları, silah, gil qablar və digər əşyalar da bu növ qəbirlərə yerləşdirilmişdir. Çiy kərpic qəbirlər yeni eranın başlanğıcına aid qəbirlərdir. Bundan başqa Qafqaz Albaniaysında mövcud olmuş digər növ qəbirlər də daş qutu qəbirlər olmuşdur. Daş qutu qəbirlər hazırkı Dağıstan torpaqlarındakı Qafqaz Albaniyasının yaşayış məntəqələri üçün səciyyəvidir. Bu tip qəbirlərdə skeletlərin sayı çox olmuş və ölülər uzadılaraq basdırılmışdır. Dağıstan ərazisindəki daş qutu qəbirlər Xoraçay-Qayakənd mədəniyyəti ilə əlaqədardır. Daş qutu qəbirlərə

azsaylı əşyalar qoyulmuşdur və bu tip qəbirlər çox az bir ərazini əhatə edir. Qafqaz Albaniyası ərazisində katakomba qəbirlər daha çox yayılmışdır. Katakomba qəbirlər Qəbələ, Mingəçevir, Qazax, Qax rayonlarında, o cümləədn Dağıstan ərazisində də yayılmışdır. Mingəçevir ərazisində iki yüzdən çox katakomba qəbirlər tədqiq edilmişdir. Katakomba qəbirlər antik və erkən orta əsr olmaqla 2 dövrü əhatə etmişdir. Bu qəbirlər quruluş cəhətdən eyni olmaqla, eni bir metrlik xəndəkdən ibarət olmuşlar. Həmin xəndəyin qurtaracaq hissəsində bir tərəfdən günbəzvari şəkildə dəfn kamerası düzəldilmişdir. Katakomba qəbirlər daha çox bir bəzən də iki kameradan ibarət olmuşdur. Bu tip qəbirlərin çox hissəsində cüt skeletlər aşkar edilmişdir. Katakomba qəbirlərdə ölülər bəzən taxta qutu və küplərdə də basdırılmışdır. Taxta qutulara və küplərə müxtəlif əşyalar qoyulurdu. Ölünü qəbrə yerləşdirdikdən sonra dəfn kamerası kərpic və ya daş ilə hörülürdü [13, s.13]. Digər qəbirlərlə müqayisədə katakomba qəbirlərdə əmək alətləri daha çox aşkar edilmişdir. Bu alətlər yaba, bıçaq oraq, qarmaq, balta, iynə, biz və digər əmək alətlərindən ibarət olmuşdur. Bu tip qəbirlərdən tapılmış numizmatik nümunələr, həmçinin qəbirlərin avadanlığı katakomba qəbirlərin I-III yüzilliklərə aid olduğunu deməyə əsas verir.

Qafqaz Albaniysında qəbirüstü abidələrin hazırlanması da inkişaf etmiş sahələrdən olmuşdur. Qafqaz Albaniyasında xatirə daşları xarakterik xüsusiyyətləri ilə fərqlənmişdir. Qəbirüstü abidələrdə bədii oyma üsulundan istifadə olunurdu. Aşkar edilmiş tapıntılar göstərir ki, bu cür abidələrdə günəş, altıguşəli xonça, üzüm salxımı, buruq və dolama xətlər və s. kimi bəzək motivlərindən istifadə edilmişdir [17, s.99]. Qəbirüstü abidələrdə ziyafət, ov, süvarinin görüşü kimi səhnələr təsviri motivləri, plastikliyi və kompozisiyası baxımından Azərbaycan Tarix Muzeyindəki üzük qaşları və tunc möhürlərdəki təsvirlərlə oxşarlıq təşkil edir. Bu təsvirlər eyni zamanda Sankt-Peterburq Dövlət Ermitajındakı alban daş lövhəsindəki təsvirlərlə də uyuşur. Tədqiqatlar belə deməyə əsas verir ki, qəbirüstü abidələrdəki təsvirlər, xüsusilə də xaçların hazırlanmasında hələ xristian dininin burada yayılmasından əvvəl türk tayfaları mühüm rol oynamışdır. Elə buna görə də Qafqaz Albaniyasında xaçlar klassik ənənələrə əsasən hazırlanmışdır. Qafqaz Albaniyasında xaçlar klassik ənənələr, dini ayinlər, elemetlərlə bağlı olmuşdur. Qafqaz Albaniyası qəbirüstü abidələrində həmçinin hörmə və ya toxuma formasında olan haşiyə geniş yayılmış bəzək nümunələrindəndir. Bu cür haşiyələrə təkcə xaçdaşlarda deyil, eyni zamanda məbədlərin üzərində də rast gəlmək mümkündür. Mürəkkəb quruluşa malik olan bu tip nümunələrin hazırlanması üçün kifayət qədər inkişaf etmiş sənətkarlıq vərdişlərinin olması vacibdir [2, s.86].

Qafqaz Albaniyasında pul münasibətləri və aşkar edilmiş yerli sikkələr. Qafqaz Albaniyası ərazisində yerli sikkələrin tapılması sübut edir ki, antik Azərbaycanda dövlətçilik ənənələri mövcud olmuşdur. Sikkə zərb edilməsi üçün siyasi və iqtisadi cəhətdən əlverişli şərait e.ə. III yüzillikdən başlayaraq yaranmışdır. Həmin dövrdə Azərbaycanda mövcud olan xarici və daxili ticarət dünya ticarəti ilə eyni səviyyədə idi. Azərbaycanda aşkar edilən ən qədim hesab edilən pul nümunəsi Babildə e.ə. IV yüzillikdə zərb edilən iki tetradraxma olmuşdur. Həmin pul nümunələri Şamaxı ərazisində 1820-ci ildə aşkar edilmişdir. Azərbaycana məxsus ölkəmizdə aşkar edilmiş ən qədim sikkə isə ötən əsrin axırlarında Məhəmməd məscidinin yanında İçərişəhərdə aparılmış arxeoloji tədqiqatlar zamanı tapılmışdır. Həmin sikkəni Əhəməni hökmdarı II Haşayar misdən hazırlatmışdır [10, s.98].

Qafqaz Albaniyasında antik dövrdə ümumilikdə pul münasibətləri geniş inkişaf etmişdir, lakin buna baxmayaraq Strabon qeyd etmişdir ki, Qafqaz Albaniyasında pul nümunılərindən, o cümlədən sikkələrdən çox az istifadə edilmişdir, ticarət demək olar ki, ancaq əmtəə mübadiləsi şəklində mövcud olmuşdur və albanlar yüzdən sonrakı sayları tanımamışdır, ancaq yüzə qədər saya

bilmişdir. Bunun əksinə olaraq ölkəmizin ərazisində aşkar edilmiş sikkələr onu göstərir ki, Qafqaz Albaniyasında pul münasibətləri yüksək səviyyədə olmuşdur. Arxeoloji tədqiqatlar zamanı tapılan numizmatik materiallar onu göstərir ki, Qafqaz Albaniyasında e.ə. III əsrin axırlarından etibarən pul zərbi mövcud olmuşdur. Həmin dövrdə Qafqaz Albaniyası ərazisində həm gümüş yerli pullar, həm də gətirilmə pullar istifadə edilmişdir [17, s.113].

Qafqaz Albaniyasında monumental heykəltəraşlıq. Qafqaz Albaniyaslnda plastik sənət növlərindən biri də monumental heykəltəraşlıq olmuşdur. Bu qrupa daş heykəllər, tunc və gildən hazırlanan heykəlciklər aiddir. Tədqiqatlar onu deməyə əsas verir ki, gil heyhəlciklər hansısa bir tədbirin müvəffəqiyyətlə bitməsi ilə bağlı olan mərasimdən sonra dağıdılırdı və basdırılırdı. Ehtimal ki, bu cür heykəlciklər ona görə məhv edilirdi ki, şər qüvvə bədnəzərini cəzb etsin. Qafqaz Albaniyasında e.ə. IV-III yüzilliklərdən etibarən daş heykəllər mühüm rola malik olmuşdur. Həmin heykəllərdə mifoloji səhnələr, məişətlə bağlı süjetlər batıq zolaqlarla göstərilmişdi. Bu cür heykəlciklər Qafqaz Albaniyası ərazisində kifayət qədər çox sayda aşkar edilmişdir. İsmayıllı rayonunda Mollaisaqlı-Hacıhatəmli ərazisində 60-dan çox heykəlcik tapılmışdır. Bu cür heykəlciklər həmçinin Şamaxı, Qəbələ, Mingəçevir ərazilərində də qazıntılar nəticəsində aşkar edilmişdir. Tədqiqatlar nəticəsində aydın olmuşdur ki, Qafqaz Albaniyasında gildən hazırlanan kiçik heykəllərdə arxaik forma qorunub saxlanmışdır və bu cür heykəlciklər Şərq incəsənəti üslubunda hazırlanmışdır. Çox güman ki, terrakotlar Ana ilahəsi ilə əlaqədar olmuşdur. Ana ilahəsi qədim dövrlərdən məhsuldarlıq simvolu hesab edilmişdir [12, s. 242]. Qafqaz Albaniyasında gil heykəlciklərin bir hissəsinin üzərində zoomorf təsvirlər mövcud olmuşdur. Həmin təsvirlər Qafqaz Albaniyası əhalisinin dini inanclarını əks etdirirdi. O cümlədən həmin zoomorf təsvirlərlə Qafqaz Albaniyası ilə qonşu olan dövlətlərin incəsənəti arasında ortaq xüsusiyyətlər də olmuşdur. Arxaik formaları qoruyub saxlamış terrakot hetykəlciklər Yaxın Şərq və Ön Asiya incəsənətini təmsil etmişdir. Qarabağ və Şirvan ərazilərində arxeoloji qazıntılar zamanı daşdan hazırlanmış antropomorf heykəllər aşkar edilmişdir. Bu antropomorf daş heykəllərin çox hissəsi əhəndaşından düzəldilmişdir və həmin heykəllərdə insan böyük ölçülü şəkildə təqdim edilmişdir. Bu cür heykəllərin hamısının baş hissəsi qopuq olmuş, heykəlin sol əli qarının üzərinə qoyulmuş, heykəlin sağ əli isə sol döşə qoyulmuş formada təqdim edilmişdir.

Qafqaz Albaniyasında bədii keramika məhsulları. Qafqaz Albaniyasında bədii keramika e.ə. IV-III yüzilliklərdə geniş şəkildə inkişaf etmişdir. Bədii keramikaya ayrı-ayrı antropomorf və zoomorf qablar aiddir. Həmin qablarda abstrakt ornamentlər təsvir edilmişdir. Bu qablara antropomorf yaxud zoomorf forma vermək üçün onlara müxtəlif qapaqlar qulplar və digər elementlər əlavə edilirdi [11, s.223].Saxsı qabların çoxunda insan, quş və heyvan təsvirləri mövcud olmuşdur ki, həmin təsvirlər Qafqaz Albaniyasının incəsənəti barəsində fikir formalaşdırır. Həmin quş, insan və heyvan təsvirləri boyayla və ya basma və yapışdırma ornamentlə hazırlanırdı. Bu cür qablardan biri də İsmayıllı rayonunda Hachatəmli ərazisində aşkar edilmişdir. Buradan tapılmış qab boz rəngli, dabanlı oturacaqlı vaza idi. Vazanın gövdəsində yapışdırma naxış təsvirləri mövcud olmuşdur. Balaca şaquli qulpları olmuş, ağzı isə dəyirmi formada olmuşdur. Kiçik qulpların hər tərəfində gül formasında yapışdırma naxış mövcud olmuşdur, eyni zamanda qulpların aşağı hissəsində də buna oxşar olan naxışlar mövcud olmuşdur. Vazanın üzərində qulaqlar, gözlər, qaşlar, hörüklər naxışlar vasitəsilə təsvir edilmiş, həmçinin kirpiklər batıq xətlərlə göstərilmişdir. Bu vazanın üzərində qadın çöhrəsi təsviri hazırkı dövrədək gəlib çatmışdır. Digər bir tapıntı isə İsmayıllıda aşkar edilmiş daş piyalədir. Bu daş piyalə İsmayıllıda Uzunboylar ərazisindən tapılmışdır. Həmin daş piyalədəki ornamentlər, maral təsviri Şamaxı rayonu ərazisində aşkar edilmiş zəngşəkilli qabdakı ornament və

maral təsvirlərinə oxşardır. Hər iki qab eyni məktəbə məxsus qablardır. [1, s.36-40]. Onu da qeyd etmək lazımdır ki, qliptika, torevtika və plastikada maral təsvirinin çox sayda olması Qafqaz Albaniyası üçün səciyyəvi xüsusiyyətdir.

Qafqaz Albaniyasında maddi mədəniyyətin sosial-iqtisadi və mədəni kontekstdə qiymətləndirilməsi.

Qafqaz Albaniyasının maddi mədəniyyəti bu qədim dövlətin sosial, iqtisadi, dini və bədii inkişaf səviyyəsinin kompleks göstəricisidir. Maddi irsin təhlili göstərir ki, burada formalaşmış sənətkarlıq ənənələri, dini memarlıq, zərbxana işi, keramika istehsalı və daş plastikası təkcə məişət və estetik zövqlə deyil, həm də geniş ictimai münasibətlər sistemi ilə sıx bağlı olmuşdur [9, s.78]. Qafqaz Albaniyasının ərazisində iqtisadi həyatın mərkəzləri olan Qəbələ, Mingəçevir, Bərdə, Şamaxı kimi şəhərlər həm ticarət yollarının qovşağında yerləşməsi, həm də yerli sənətkarlığın inkişafı baxımından strateji əhəmiyyətə malik olmuşdur. Bu şəhərlərdə aparılan arxeoloji qazıntılar nəticəsində keramika emalatxanaları, metal əridilən sexlər və sikkə zərb edilən məntəqələr aşkar edilmişdir ki, bu da iqtisadi müstəqilliyin və dövlət idarəçiliyinin mövcudluğunu təsdiqləyir [5, s.81].

Qafqaz Albaniyasının maddi mədəniyyətində sənətkarlıq məhsullarının bölgələr üzrə fərqli xüsusiyyətlərə malik olması diqqəti cəlb edir. Məsələn, Mingəçevir və Qəbələdən tapılmış ornamentli gil qabların üzərində mürəkkəb bədii kompozisiyalar, zoomorf və antropomorf təsvirlər müşahidə olunur. Bu fakt həmin ərazilərdə yüksək zövqə malik zərif sənətkarların fəaliyyət göstərdiyini göstərir. Bununla yanaşı, kənd yaşayış məntəqələrindən aşkar edilən keramika məmulatlarının daha çox funksional və sadə olması həmin dövrün sosial təbəqələşməsini əks etdirir [11, s.225]. Beləliklə, maddi mədəniyyət nümunələri həm sosial iyerarxiyanın, həm də iqtisadi bölgünün aydın göstəricisi kimi çıxış edir.

Qafqaz Albaniyasının mədəni irsində xüsusilə dini rəmzlərin və simvolların rolu böyük olmuşdur. Bütpərəstlik dövrünə aid tikililərdə və məbədlərdə günəş, ay və təbiət kultu ilə bağlı ornamentlər geniş yayılmış, sonradan xristianlığın qəbulundan sonra bu simvollar yeni dini ideologiyanın təsiri ilə birləşmişdir. Nəticədə, Qafqaz Albaniyasında sintez tipli rəmzlər – yəni həm türk mifoloji elementlərini, həm də xristian inancını əks etdirən bədii motivlər formalaşmışdır [8, s.86]. Bu fakt Qafqaz Albaniyasının mədəniyyətini bir yönlü deyil, çoxqatlı və multietnik proses kimi dəyərləndirməyə imkan verir.

Maddi mədəniyyətin mühüm sahələrindən biri də daşişləmə sənəti və memorial plastika olmuşdur. Qəbirüstü abidələrdə və xatirə daşlarında tətbiq edilən oyma üsulu, kompozisiya tərzi və bədii təsvirlər yalnız dekorativ deyil, həm də ideoloji məna daşıyırdı. Aşkar edilmiş nümunələrdə süvari, ov, ziyafət səhnələri, günəş və üzüm salxımı kimi simvollar, həmçinin hörmə naxışlı haşiyələr geniş yer tuturdu [17, s.99]. Bu təsvirlər həm sosial statusu, həm də dini və mifik dünyagörüşü ifadə edirdi. Tədqiqatlar sübut edir ki, bu tip təsvirlərin yaranmasında türklərə məxsus təsəvvürlər və inanc sistemləri mühüm rol oynamışdır [2, s.17].

Qafqaz Albaniyasının iqtisadi və mədəni inkişafı qonşu regionlarla əlaqələr nəticəsində daha da zənginləşmişdir. Cənubdan İran və Mesopotamiya, şimaldan isə skif və hun tayfaları ilə iqtisadi-ticarət münasibətləri nəticəsində mədəni sintez baş vermişdir. Bu təsir, xüsusilə, keramika, bəzək əşyaları və metal məmulatlarda özünü aydın göstərir. Məsələn, Bərdə və Qəbələdən tapılmış bəzi gümüş bəzək nümunələrində həm yerli motivlər, həm də Parfiya üslubu elementləri müşahidə edilir [3, s.211]. Bu, Qafqaz Albaniyasının mədəni mühitinin yalnız regional deyil, həm də beynəlxalq xarakter daşıdığını sübut edir.

Bundan başqa, Qafqaz Albaniyasının maddi irsində musiqi alətləri, əmək alətləri və məişət əşyaları da xüsusi yer tutur. Arxeoloji qazıntılar zamanı tapılmış metal və sümükdən düzəldilmiş qarmaqlar, iynələr, ox ucluqları və bəzək elementləri bu sivilizasiyanın yüksək texniki bacarıqlara malik olduğunu göstərir [13, s.13]. Eyni zamanda, tapılmış terrakota fiqurların çoxunda qadın obrazının təsvir edilməsi, Ana ilahəsinə sitayişin qədim ənənə kimi mövcudluğunu sübut edir [12, s.142]. Bu isə Qafqaz Albaniyasında məhsuldarlıq və bolluq kultunun sosial həyatdakı rolunu ön plana çıxarır.

Bütün bu faktlar Qafqaz Albaniyasının maddi mədəniyyətinin yalnız yerli inkişafın nəticəsi olmadığını, əksinə, regionlararası qarşılıqlı təsirlərin və çoxəsrlik mədəni inteqrasiyanın məhsulu olduğunu təsdiq edir. Qafqaz Albaniyası mədəniyyəti həm türk etnomədəniyyətinin, həm də ümumqafqaz mədəniyyət sisteminin ayrılmaz hissəsi kimi çıxış etmişdir. Bu baxımdan, arxeoloji və memarlıq abidələrinin qorunması, sistemli şəkildə öyrənilməsi və beynəlxalq elmi dövriyyəyə daxil edilməsi Azərbaycan tarixşünaslığının prioritet istiqamətlərindən biri olmalıdır [6, s.32].

Nəticə

Qafqaz Albaniyasının maddi mədəniyyəti türk etnomədəniyyətinin ayrı-ayrı inkişaf pillələrini əks etdirir. Bu xüsusiyyət həmçinin maddi mədəniyyət abidələrinin üzərindəki dekorativ təsvirlər üçün də keçərlidir. Lakin bu mədəniyyət ayrı-ayrı vaxtlarda müxtəlif ideoloji, dini cəhətdən təsirə uğramışdır. Bütün bunlara rəğmən özünəməxsus etnomədəni mənsubluğunu saxlaya bilmişdir. Arxeloloji tədqiqatlar Qafqaz Albaniyasının maddi mədəniyyətini geniş şəkildə öyrənməyə imkan verir və onun inkişaf mərhələləri haqqında fikir söyləməyə şərait yaradır. Qafqaz Albaniyasının memarlıq abidələrinin ermənilər tərəfindən saxtalaşdırılması, onların erməni abidələri kimi qələmə verilməsi kimi əməllər görkəmli tədqiqatçılarımızın arxeoloji araşdırmaları nəticəsində əsassız hesab edilmişdir. Sübut edilmişdir ki, Qafqaz Albaniyası memarlıq abidələri planlaşdırılmasına, xüsusiyyətlərinə, xarakterik əlamətlərinə görə ermənilərə məxsus memarlıq abidələrindən tam şəkildə fərqlidir.

Ədəbiyyat

1.Abdullayeva, A.C. Alban və Qriqoryan kilsələrində memarlıq fərqləri // - Bakı: Dövlət və din, - 2021. № 1, - s. 36-46.
2.Alışov, N.Ə. Azərbaycan Albaniyasının xristian abidələri: / tarix üzrə fəlsəfə doktoru dis.avtoref. / - Bakı, 2014. - 27 s.
3.Azərbaycan tarixi: [7 cilddə] - Bakı: Elm, - c.1.- 2007. - 520 s.
4.Azərbaycan tarixi: [7 cilddə] - Bakı: Elm, - c.2.- 2007. - 608 s.
5.Əliyev, T.R., Babayev, F.İ. Mil-Qarabağ bölgəsində Qafqaz Albaniyasının daha bir şəhəri aşkar olundu // - Bakı: Azərbaycanda arxeoloji tədqiqatlar, - 2008. - s. 78-83.
6.Əliyev, Z.B. Albanlar, yoxsa ermənilər // - Bakı: Dövlət və din, - 2020. № 2, - s. 25-33.
7.Əsədov, V.F. Qafqaz Albaniyasının məbədləri // "Xalq" qəz. - Bakı, 2009, 25 iyun.
8.Hacıyev, İ.A. Qafqaz Albaniyasının maddi mədəniyyət abidələri: Daş plastikası // - Bakı: Dövlət və din, - 2018. № 2, - s. 82-88.
9.Qəhrəmanova, Z.N. Erkən orta əsrlərdə Albaniyanın Uti vilayətinin yaşayış məskənləri: / tarix üzrə fəlsəfə doktoru dis. / - Bakı, 2021. - 192 s.
10.Məmmədov, T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə. - Bakı: Təhsil nəşriyyatı, - 2006. - 400 s.
11.Paşayeva, M.T. Azərbaycanın qədim dövlətləri. - Bakı: İqtisad Universiteti nəşriyyatı, - 2018. - 288 s.
12.Səfərov, Y.Ə. Qədim Azərbaycan: nə bilirik. - Bakı: Azərnəşr, - 1989. - 157 s.
13.Caucasian Albania / Edited by Gippert, J., Dum-Tragut, J. - Berlin: De Gruyter, - 2023. - 65 p.

14.Fischer, B., Schmitt, O. A concise history of Albania. - United Kingdom: TJ Books Limited, - 2022. - 390 p.
15.Gippert, J., Dum-Tragut, J. Caucasian Albania in medieval armenian sources (5th-13th centuries). - Berlin: De Gruyter, - 2023. - 60 p.
16.Ismaılov, D. History of Azerbaijan. - Baku: AzMİU NPM, - 2017. - 352 p.
17.Movses Dasxuraacim. The history of the Caucasian Albanians / Trans. by Dowselt, C. - London: Oxford University Press, - 1961. - 252 p.

Məqalənin redaksiyaya daxilolma tarixi: 24.06.2025

Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 24.10.2025

Məqalənin çapa qəbul olunma tarixi: 27.10.2025